

# Avqust ayı üzrə Kiber və Texnologiya Xəbərləri

## Azərbaycan

### Bu gündən Azərbaycanda internet qiyməti dəyişdi.

Bu gündən etibarən Azərbaycanda genişzolaqlı internet tarifləri üzrə sürət və ödəniş məbləğinə dəyişiklik edilib. GPON (Gigabit Passiv Optik Şəbəkə) tarifləri üzrə təqdim olunan sürətlər 2.5 dəfə artırılıb (40 Mbit/s internet sürəti 100 Mbit/s-yə, 60 Mbit/s internet sürəti 150 Mbit/s-yə və 100 Mbit/s sürəti isə 250 Mbit/s-yə qədər). Yeni sürət tariflərində abunəçilər üçün minimal sürət 100 Mbit/s-dən başlayır və hər Mbit/s üçün ödəniş məbləği 0.45 AZN-dən 0.25 AZN-ə endirilib.

Mənbə: lent.az 15 Avqust 2024

### Elektron Təhlükəsizlik Xidməti xəbərdarlq edib: Bank kartlarından pul oğurlana bilər.

Azərbaycanda fəaliyyət göstərən müxtəlif bankların adından fişinq (elektron hücum) cəhdləri həyata keçirilir. "Kiberdələduzlar e-poçt vasitəsilə bank ödənişlərinin tamamlanması ilə bağlı saxta məlumatlar göndərərək istifadəçiləri zərərli qoşmalara yönləndirirlər. Qoşmanın tərkibində fərdi məlumatları ələ

keçirmək üçün zərərli "keylogger" proqramı yerləşdirilib", - deyə məlumatda qeyd olunub.

Mənbə: xeberer.az 27 Avqust 2024

### Kiberdələduzlar "app.ctost.com" domeni altında dələduzluq platforması yaradıb.

Bu barədə Elektron Təhlükəsizlik Xidməti (ETX) məlumat yayıb . "Belə ki, platforma vasitəsilə vətəndaşlar maliyyə piramidasına cəlb olunaraq asan qazanc vədləri təklif edilir. Dələduzluq prosesi zamanı vətəndaşa sorğu forması göndərilir və forma doldurulduqdan sonra ona məxsus hesab yaradılır. Növbəti mərhələdə hesaba daxil olmaq üçün şifr və giriş keçidi göndərilir",- deyə məlumatda qeyd olunub. Bu dələduzluq növündə əsas məqsəd vətəndaşda inam yaradaraq platformaya daha yüksək məbləğlərin köçürülməsidir.

Mənbə: xeberler.az 30 Avqust 2024

# Qazaxıstan

### Qazax təşkilatları "Qanlı Qurd" kiberhücumlarının hədəfindədir.

Qazaxıstan təşkilatları STRRAT zərərli proqram təminatından istifadə edən "Qanlı Qurd" kiber təhlükəsinin hədəfinə çevrilib. Yeraltı forumlarda 80 dollara satılan bu zərərli proqram hücumçulara korporativ kompüterləri idarə etməyə və həssas məlumatları oğurlamağa imkan verir.

Mənbə: thehackernews.com 05 Avqust 2024

# Gürcüstan

### Kutaisidə Yeni Yüksək Texnologiyalar Mərkəzi Yaradılacaq.

Gürcüstanın qərbindəki Kutaisi şəhərindəki keçmiş parlament binası yüksək texnologiya və innovasiya mərkəzinə çevriləcək. İqtisadiyyat Nazirliyinin məlumatına görə, burada elmi muzey, startup akseleratoru, beynəlxalq IT məktəbi, konfrans mərkəzi və süni intellektin inkişafı üçün məlumat mərkəzi qurulacaq.

Mənbə: agenda.ge 5 Avqust 2024

deloitte.az

Deloitte refers to one or more of Deloitte Touche Tohmatsu Limited (“DTTL”), its global network of member firms, and their related entities. DTTL (also referred to as “Deloitte Global”) and each of its member firms are legally separate and independent entities. DTTL does not provide services to clients. Please see www.deloitte.com/about to learn more.

Deloitte is a leading global provider of audit and assurance, consulting, financial advisory, risk advisory, tax and related services. Our network of member firms in more than 150 countries and territories serves four out of five Fortune Global 500® companies. Learn how Deloitte’s approximately 415,000 people make an impact that matters at www.deloitte.com.

This communication contains general information only, and none of Deloitte Touche Tohmatsu Limited, its member firms or their related entities (collectively, the “Deloitte network”) is, by means of this communication, rendering professional advice or services. Before making any decision or taking any action that may affect your finances or your business, you should consult a qualified professional adviser. No entity in the Deloitte network shall be responsible for any loss whatsoever sustained by any person who relies on this communication.

8 November Avenue 25E,
Baku, AZ1025, Azerbaijan

© 2024 Deloitte & Touche LLAC. All rights reserved.